**“Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin strukturunun təkmilləşdirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 24 yanvar tarixli 844 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 24 yanvar tarixli 844 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, 1, maddə 36; 2004, 9, maddə 681; 2005, 2, maddə 73, 12, maddə 1109; 2006, 7, maddə 590, 9, maddə 736; 2007, 3, maddə 219, 12, maddə 1244; 2009, 7, maddə 529, 10, maddə 777; 2010, 4, maddə 298, 7, maddə 610; 2011, 9, maddə 789, 11, maddə 1011; 2014, 2, maddə 119, 12, maddələr 1582, 1584; 2016, 2 (II kitab), maddə 268, 3, maddə 472) ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Nizamnaməsi”nin 3.1-ci bəndində “1,528,000,000 (bir milyard beş yüz iyirmi səkkiz milyon)” rəqəm və sözləri “1,628,000,000 (bir milyard altı yüz iyirmi səkkiz milyon)” rəqəm və sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin nizamnamə kapitalının bu Fərmanın 1-ci hissəsinə uyğun olaraq artırılmış hissəsinin maliyyələşdirilməsini “Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 27 dekabr tarixli 1180 nömrəli Fərmanının 1.14.3.3.9-cu yarımbəndində nəzərdə tutulmuş vəsait hesabına təmin etsin.

3. Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinə tapşırılsın ki, bu Fərmana uyğun olaraq dövlət büdcəsindən ayrılan 100,000,000 (yüz milyon) manat məbləğində vəsaitdən ölkənin neftə və təbii qaza artan tələbatını təmin etmək məqsədi ilə neft-qaz yataqlarında mövcud infrastrukturun əsaslı təmiri və yenidən qurulması işlərinin həyata keçirilməsi üçün istifadə etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 4 oktyabr 2017-ci il
1613